UOT 94 "16/18"
DOI: https://doi.org/10.30546/19063.2026.06.5341

XIX ƏSRİN İKİNCİ YARISINDA CƏNUBİ QAFQAZDA POÇT XİDMƏTİNİN TƏKAMÜLÜ TARİXİ

ELMİRA FİRDOVSİ QIZI ƏLİYEVA
Gəncə Dövlət Universitetinin doktorantı
Gəncə, Heydər Əliyev prospekti 429
E-mail: amz2005@rambler.ru

XÜLASƏ

XIX əsrin ikinci yarısında Cənubi Qafqazda poçt xidmətinin təkamülü, sahə üzrə həyata keçirilən struktur islahatları, tarif siyasəti və rabitə infrastrukturunun modernləşməsi tədqiqatın əsas qayəsini təşkil edir. Araşdırmada Rusiya imperiyasının mərkəzi rabitə idarəçiliyindəki dəyişikliklərin Cənubi Qafqaza təsiri, poçt stansiyalarının polis nəzarətindən çıxarılaraq Poçt İdarəsinə verilməsi və Hərbi Gürcüstan yolunda atlı poçt karetlərinin təşkili təhlil edilir. Qafqaz Poçt Dairəsinin yaradılması (1863), Bakı və Tiflis poçtamtlarının təşkili, habelə 1885-ci ildə poçt və teleqraf sahələrinin birləşdirilməsi ilə regional dairə sisteminə keçid arxiv sənədləri və dövri mənbələr əsasında işıqlandırılır.

Tədqiqat işində xidmətlərin iqtisadi və texnoloji aspektlərinə xüsusi yer verilir: 1857-ci ildə ümumrusiya markalarından əvvəl dövriyyəyə buraxılmış məşhur "Tiflis unikumu", 1858-ci ildən etibarən ümumimperiya gerbli markalarının istifadəsi, dəqiq çəki (lot) və məsafə taariflərinin tətbiqi ətraflı göstərilir. Xüsusilə Bakıda neft sənayesinin inkişafı fonunda beynəlxalq və yüksək nominallı poçt dövriyyəsinin artması, Gəncə və ətraf qəzalarda isə aqrar ticarətin mülki yazışmaları canlandırması müqayisəli şəkildə təqdim olunur. Regionda qurulan bu mərkəzləşdirilmiş sistem sonrakı mərhələdə müstəqil milli rabitə şəbəkəsinin formalaşmasına zəmin yaratmışdır.

Açar sözlər: *Cənubi Qafqaz, poçt xidməti, Qafqaz Poçt Dairəsi, poçt taarifləri, Tiflis və Bakı poçtamtı, infrastruktur modernləşməsi*.

1860-cı illərin əvvəllərinə qədər Rusiya imperiyasında dövrün tələblərinə cavab verə biləcək vahid rabitə sistemi mövcud deyildi. Həmin vaxta qədər poçt işinin dövlət tərəfindən tənzimlənməsi sistemi kifayət qədər mürəkkəb bir inkişaf yolu keçmişdi. 1850-ci illərin sonu – 1860-cı illərin əvvəllərində Poçt Departamentinin direktoru F. İ. Pryanişnikov rabitə sahəsində bir sıra problemlərin həllinə yönəlmiş yenidənqurma layihələri hazırladı. F. İ. Pryanişnikovu ilk növbədə poçt sahəsində çalışan qulluqçuların maddi təminatı narahat edirdi. 1850-ci illərin sonunda poçt heyəti hələ də 1830-cu ilin köhnəlmiş ştat cədvəllərinə uyğun fəaliyyət göstərirdi [11, s. 60].

1865-ci ildə Poçt Departamenti Baş rəis İ.M. Tolstoya poçt və teleqraf naziri rütbəsi verdi və onun tabeliyindəki Poçt Baş İdarəsi isə Poçt və Teleqraf Nazirliyinə çevrildi. Həmin nazirliyin tərkibinə iki Departament daxil edildi: Poçt və Teleqraf departamentləri [7, s. 6].

1868-ci ildə Poçt və Teleqraf Nazirliyi, qraf Tolstoyun xələfi - general-adyutant Timaşevin dövründə Daxili İşlər Nazirliyi ilə birləşdirildi. Sonradan, 1880-ci ildə Poçt və Teleqraf departamentləri bu Nazirliyin tərkibindən çıxarılaraq Dövlət katibi Makovun idarəçiliyi altında yenidən müstəqil Nazirlik kimi təşkil olundu. Təxminən bir il fəaliyyət göstərən bu qurum 1881-ci ildə qəti şəkildə Daxili İşlər Nazirliyinə birləşdirildi [7, s. 8].

1884-cü ildə Poçt və Teleqraf departamentləri Poçt və Teleqraf Baş İdarəsi adı altında vahid mərkəzi idarədə birləşdirildi. Bu qurum daxili işlər nazirinin tabeliyində saxlanılsa da, Poçt və Teleqraf departamentləri direktorlarının genişləndirilmiş səlahiyyətləri verilmiş xüsusi vəzifəli şəxsə - Baş İdarənin rəisinə tabe edildi. Yerli idarələrin təşkilinin əsasına dairə sistemi qoyuldu; belə ki, 64 quberniya poçt idarəsi və 18 teleqraf dairəsinin əvəzinə 35 poçt-teleqraf dairəsi təşkil olundu. Dairə idarələri əvvəlcə tərkiblərinə daxil olan quberniyaların coğrafi mövqeyinə, nəqliyyat yolları və teleqraf xətlərinin yerləşməsi və uzunluğuna, poçt və teleqraf müəssisələrinin sayına, eləcə də şəxsi heyətin miqdarına müvafiq olaraq iki dərəcəyə (sinfə) bölündü. Poçt-teleqraf dairələrinin rəhbərliyinə dairə rəisləri təyin edildi; onların şəxsində quberniyalar üzrə Poçt hissəsi müdirlərinin və Teleqraf dairəsi rəislərinin vəzifələri birləşdirildi. 1884-cü ildə poçt və teleqraf idarələrində başlanılmış yenidənqurma işləri 1888-ci ilə başa çatdırıldı [7, s. 8].

Rusiya imperiyasının mərkəzi poçt idarəçiliyində

aparılan islahatlar çox keçmədən onun mühüm hərbi-strateji və iqtisadi regionu sayılan Cənubi Qafqazda da poçt təsərrüfatının yenidən qurulmasını zəruri etdi. XIX əsrin ikinci yarısından etibarən mərkəzləşmə meyillərinin güclənməsi nəticəsində bölgədəki ənənəvi poçt daşımaları (qovhaqov sistemi), stansiya təsərrüfatı və poçt-yama əlaqələri vahid idarəetmə mexanizminə tabe edildi.

1856-cı ilin 22 iyulunda knyaz Aleksandr İvanoviç Baryatinski (1815–1879) Qafqazın canişini təyin edildi. O, sələfi qraf Mixail Vorontsov tərəfindən başlanmış islahatları davam və inkişaf etdirdi. Qafqazda poçt xidmətinin genişmiqyaslı islahatları Baryatinskinin adı ilə bağlıdır. Böyük dövlət xadimi olan A. Baryatinski başa düşürdü ki, rabitənin inkişafı Qafqaz regionu üçün böyük əhəmiyyət kəsb edir. Həmin dövrdə poçt yeganə rabitə vasitəsi idi və buna görə də onun düzgün təşkili planlaşdırılan və həyata keçirilən bütün islahatların zəruri ilkin şərti idi. Dəqiq qurulmuş poçt xidməti olmadan nə ordunun uğurlu hərbi əməliyyatları, nə də iqtisadiyyat və ictimai həyatda hər hansı mülki dəyişikliklər mümkün deyildi. Məhz buna görə də canişin Qafqazda poçt xidmətinin yenidən təşkili məsələlərinə laqeyd qala bilməzdi [13, s. 20].

Knyaz A. Baryatinski Qafqazın canişini təyin edildikdən sonra, 1857-ci ilin əvvəllərində quberniyada poçt daşımalarının təminatı üçün hər il kənd vergisindən ayrılan külli miqdarda vəsaitə diqqət yetirdi. O, bütün bu xaosu aradan qaldırmaq qərarına gəldi. 1857-ci il yanvarın 30-da o, digər quberniyalarla müqayisədə ən acınacaqlı vəziyyətdə olan Tiflis quberniyası stansiyalarının təcrübə xarakterli olaraq üç il müddətinə Qəza Polisinin tabeliyindən çıxarılıb Poçt İdarəsinin idarəçiliyinə verilməsi təklifi ilə Qafqaz Komitəsinə müraciət etdi. Təklif Qafqaz Komitəsində müzakirə olundu və 7 iyun 1857-ci ildə çar II Aleksandr tərəfindən təsdiq edildi [9, s. 2–5, 11–12].

Quberniyada poçt idarəsinin islahatlarına başlayan A. İ. Baryatinski Zaqafqaziya Diyarı Baş İdarəsinin heyət üzvünü Qafqaz və Qafqazdan kənar ərazilərin poçt şöbəsinin idarəçiliyindən azad etdi. Bu, Zaqafqaziyada poçt daşımalarına xidmət edən stansiyaların son dərəcə acınacaqlı vəziyyətdə olması ilə bağlı idi. 10 aprel 1857-ci ildə canişin Nikolay Semyonoviç Kaxanovu Qafqaz və Qafqazdan kənar ərazilərin poçt dairəsinin müvəqqəti müdiri təyin etdi [8, s. 1–2, 7].

Qafqaz canişininin tapşırığı ilə N. S. Kaxanov stansiyaların acınacaqlı vəziyyətinin səbəblərini araşdırmalı, eləcə də onların saxlanması üçün xərclənən vəsaitin azaldılması yollarını tapmalı idi. Bundan əlavə, canişin N. S. Kaxanova əsas traktlardan (poçt xətti) istifadə etməklə Zaqafqaziyada poçt karetlərinin hərəkətini təşkil etmək arzusunu bildirdi. Təxminən bir il sonra N. S. Kaxanov canişinə Zaqafqaziya diyarında poçt daşımalarının (poçt qovhaqovunun) yenidən təşkili layihəsini şərh etdiyi hesabat təqdim etdi [10, s. 1-2].

Zaqafqaziya diyarında poçt daşımalarını yaxşılaşdırmaq üçün N. S. Kaxanov tərəfindən təklif olunan tədbirləri həyata keçirmək böyük maliyyə vəsaiti tələb edirdi. Təkcə Hərbi Gürcüstan yolu üzərində, Tiflis ilə Vladiqafqaz arasında yerləşən 13 stansiya binasının inşası üçün smetada 601 891 rubl məbləğində vəsait nəzərdə tutulmuşdu. Bu layihəyə 1859-cu ildə xüsusi komissiya tərəfindən baxıldı və canişin tərəfindən təsdiq edildi. Həmin təsdiq olunmuş layihəyə əsasən Hərbi Gürcüstan yolunun təchiz edilməsi və onun üzərində poçt karetlərinin (dilijanslarının) hərəkətinin təşkili planlaşdırılırdı [13, s. 41].

Layihənin icrasına dair proqram təsdiq edildikdən sonra A. İ. Baryatinski N. S. Kaxanova "təklif etdiyi ideyanı həyata keçirməyi" tapşırdı. Stansiya binalarının tikintisi podratçıya — otuz üç illik ssuda və müvafiq faizlər şərti ilə 435 000 rubl kredit istəyən Tiflis sakini Mehdi bəy Ağa Hüseyn oğluna həvalə edildi [13, s. 42].

1861-ci ildə Hərbi Gürcüstan yolunun abadlaşdırılması başa çatdırıldı və trakt poçt karetlərinin hərəkəti üçün açıldı. Tiflis quberniyasının digər stansiyalarının abadlaşdırılması üçün vəsait çatışmadığından onlar əvvəlki vəziyyətdə qaldı və Senatın 30 aprel 1861-ci il tarixli fərmanı ilə yenidən polis idarəsinin tabeliyinə qaytarıldı. Beləliklə, poçt daşımaları sahəsində aparılan islahatlar nəticəsində yalnız Hərbi Gürcüstan yolu üzərində yerləşən stansiyalar Poçt İdarəsinin idarəçiliyində saxlanıldı [13, s. 42].

Digər poçt stansiyaları isə 1868-ci ildən sonra müxtəlif həcmli təmir işləri aparılmaqla fəaliyyətini davam etdirirdi. Belə ki, Kutais quberniyasında 4 stansiya 5.877 rubl, Bakı quberniyasında 2 stansiya 4.892 rubl, Dağıstan vilayətində isə 3 stansiya 4.520 rubl vəsait hesabına təmir edilmişdi. Yeni stansiya binalarının inşasına gəldikdə, 1870-ci ildə Tiflis–İrəvan tranzit yolunda ayrılmış tranzit vəsaitləri hesabına üç yeni bina tikilərək poçt idarəsinin istifadəsinə verildi. Bundan əlavə, Tikinti-Yol Komitəsinin rəsmi qərarı ilə rəhbərlik üçün müəyyənləşdirilmişdi ki, hər üç stansiyanın ümumi tikinti xərci 24 min rubldan artıq olmamalıdır (o cümlədən iki kiçik stansiyanın hər biri 6 min rubl, bir böyük stansiya isə 12 min rubl). Hətta Mərkəzi Poçt İdarəsi tərəfindən üç dərəcəli poçt stansiyaları üçün vahid layihə çertyoj-

ları hazırlanmışdı. Lakin həm komitənin bu qərarı, həm də layihə cizgiləri demək olar ki, kağız üzərində qaldı; çünki 1871-ci ildən etibarən stansiyalar və onların binaları yeni qiymətləndirmə sistemi üzrə, qismən də hərraclar vasitəsilə bilavasitə poçt icarədarlarının mülkiyyət və məsuliyyətinə verildi. Nəticə etibarilə, 1868-ci ildən sonra çox az sayda stansiya inşa olundu: Mingəçevir–Bakı yolu üzərində 11.445 rubla başa gələn bir stansiya, Zaqatala dairəsində 10.243 rubla iki stansiya, Bakı quberniyasında 4 min rubla bir stansiya və Yelizavetpol quberniyasında 2.118 rubla bir yarımstansiya (dayaq məntəqəsi) olmaqla, bütövlükdə təxminən 28 min rubl dəyərində tikinti işi həyata keçirildi [3, s. 681–682].

24 avqust 1863-cü ildə qəbul edilmiş yeni "Qafqaz Poçt Dairəsi haqqında Əsasnamə" ilə Qafqaz Poçt Dairəsi yenidən təşkil olundu; həm Baş Poçt İdarəsinə, həm də canişinə tabe olan bu yeni strukturun tərkibində 4 regional idarə formalaşdırıldı [2, s. 17].

N. S. Kaxanov Qafqaz Poçt Dairəsinin rəisi təyin edildi. "Əsasnamə"yə əsasən, quberniya poçt kontorları poçtamtlara çevrildi. Dörd belə poçtamt təsis edilmişdi: Tiflis, Bakı, Stavropol və Yekaterinodar. Hər bir poçtamt bir sıra ekspedisiyalara bölünürdü. Tiflis poçtamtının ştatı 60 nəfərə qədər (o cümlədən 28 poçtalyon) artırıldı. Tiflis poçtamtı 11 qəza poçt kontoruna (o cümlədən Yelizavetpol, Şuşa, İrəvan və Naxçıvan kontorlarına), 8 poçt şöbəsinə və nəzarətçiləri olan 59 poçt stansiyasına, eləcə də Qərbi Zaqafqaziyada Poti, Batum, Suxumi və Ozurqeti məntəqələrini əhatə edən Kutais poçt idarəsinə rəhbərlik edirdi. Şərqi Zaqafqaziyada isə Bakı poçtamtı Şamaxı, Quba, Lənkəran, Cavad və Dərbənd qəza kontorları ilə Xəzərsahili trakt stansiyalarını idarə edirdi. Qafqaz poçt dairəsindəki bu çevrilmələr 1 dekabr 1863-cü ildə qüvvəyə mindi [13, s. 53].

Təcrübə xarakterli olaraq 1 yanvar 1866-cı ilədək qüvvədə olması nəzərdə tutulan bu "Əsasnamə"yə uyğun olaraq, Bakı poçtamtı (Poçt İdarəsi) tabeliyindəki poçt məntəqələrinə rəhbərlik etməklə yanaşı, həm də istehsalat (əməliyyat) funksiyalarını həyata keçirməyə və icra etməyə borclu idi: bilavasitə quberniya mərkəzinin poçt stansiyasına rəhbərlik etmək və xüsusi şəhər poçt kargüzarlığını aparmaq (bütün növ poçt göndərişlərini qəbul etmək və təhvil vermək), yəni şəhər əhalisinə və quberniya mərkəzinin rəsmi dövlət idarələrinə poçt rabitəsi xidməti göstərmək. Beləliklə, 24 avqust 1863-cü ildən etibarən digər mərkəzi şəhərlərlə yanaşı Bakıda da şəhər poçtu müntəzəm fəaliyyətə başlayır [1, s. 13-14].

Rusiyada poçt xidmətlərinin yenidən təşkili yalnız 1867-ci ildə, Dövlət Şurasının 27 iyunda II Aleksandr tərəfindən təsdiq edilmiş rəyi əsasında həyata keçirildi. Buna əsasən, ölkədə mərkəzi və yerli poçtamtlar tətbiq edildi. Zaqafqaziya diyarının poçt stansiyalarının kənd polisinin tabeliyindən çıxarılaraq Poçt İdarəsinin idarəçiliyinə verilməsi isə Senatın 9 dekabr 1867-ci il tarixli "Qafqaz və Zaqafqaziya diyarının yenidən qurulması haqqında" fərmanı əsasında 1868-ci ildə baş tutdu [12].

Bu dövrdə Rusiyada həyata keçirilən islahatların ardınca Qafqazda yeni islahatlar həyata keçirildi; bu islahatlar regionun həyat tərzinin Rusiyanın digər hissələrinin həyatı ilə sürətlə yaxınlaşdırılmasına yönəlmiş Qafqaz və Zaqafqaziya diyarının idarəçiliyindəki ümumi dəyişikliklərin tərkib hissəsi idi. Onlar regionun təbiəti və tarixi inkişafı ilə şərtlənən yerli şərait nəzərə alınmaqla aparıldı. Zaqafqaziya diyarının poçt idarələrindəki yeni dəyişikliklərə əsasən, bütün poçt kontorlarının ştat tərkibi Rusiyanın dövlət poçt kontorlarının strukturu ilə uyğunlaşdırıldı və 1 yanvar 1868-ci ildə qüvvəyə mindi [13, s. 54].

13 yanvar 1877-ci ildə Qafqaz canişini Cənubi Qafqaz diyarının daxili poçt stansiyalarının təminatına dair yeni şərtləri (kondisiyaları) təsdiq etdi və bəzi yerli stansiyalar qiymətləndirmə sistemi üzrə icarəyə verildi. Quberniyadaxili qəzaları mərkəzə bağlamaq üçün zemstvo vəsaiti hesabına yeni xətlər açıldı: illik 6.843 rubl xərclə Tiflis–Manqlis, 2.450 rubl xərclə İrəvan quberniyası daxilində Vağarşapat (Eçmiədzin)–İğdır, 900 rubl xərclə Qarakilsə–Cəlaloğlu və yük heyvanları ilə işləyən Suxum–Zuqdidi əlaqələri istifadəyə verildi. Hərbi Gürcüstan traktında isə zemstvonun hesabına illik 9.142 rubl 76 qəpik ödənilməklə qoşqu üçün 12 ədəd üçatlıq komplekt əlavə edildi.

17 fevral 1878-ci ildə Qafqaz canişini Şimali Qafqazın daxili poçt stansiyalarının saxlanması üçün yeni qaydaları təsdiqlədi. Stansiyalar yalnız açıq hərraclarla icarəyə verildi və bunun nəticəsində bölgədəki stansiyalarda at təminatı üçün ayrılan yerli subsidiyalar 46.887 rubl 20 qəpik azaldı [3, s. 686-687].

Yazışmaların həcminin davamlı artması Poçt Müdiriyyətini 4 iyul 1879-cu ildə Tiflis şəhərində ikinci bir poçt şöbəsi açmağa vadar etdi. Bu, Tiflisdə şəhər poçt xidmətinin təkmilləşdirilməsi üçün canişin tərəfindən həyata keçirilən sonuncu tədbir oldu [13, s. 54].

XIX əsrin 70-ci illərinin ortalarında Bakı Poçt İdarəsinin tabeliyinə cəmi 2 şöbə — Krasnovodsk və Aleksandrovsk portunda yerləşən şöbələr əlavə olundu. Beləliklə, poçt müəssisələrinin dinamikasında da rus çarizminin müstəmləkəçilik siyasəti özünü göstərirdi [1, s. 16].

Bu dövrdə Hərbi Gürcüstan traktının 13 stansiya

binası əsaslı təmir edildi (bunun üçün 1873-cü ildə 29.474 rubl ayrılmışdı), quberniya və qəza mərkəzlərində yerləşən bir sıra yerli idarələr isə daha geniş binalarla təmin olundu. Dövlət Şurasının 12 noyabr 1879-cu il tarixli ali təsdiqli qərarı ilə Qafqaz poçt dairəsi idarəsinin, eləcə də Cənubi Qafqaz diyarının quberniya və qəza poçt qurumlarının ştat, dəftərxana və təsərrüfat xərclərini (o cümlədən Qara dəniz dairəsinin yerli poçt rütbəlilərinin maaşlarını) gücləndirmək üçün Daxili İşlər Nazirliyinin və Cənubi Qafqaz Mülki İdarəsinin smetaları üzrə illik 32.300 rubl əlavə vəsait ayrıldı. Bu vəsait sonradan Qafqaz Canişini tərəfindən 9 fevral 1880-ci ildə təsdiq edilən və bölgədaxili idarəetmə strukturunu yeniləyən yeni ştat cədvəlinin təminatına yönəldildi. 1880-ci il ştat islahatı ilə quberniyadaxili rabitəni idarə edən Tiflis Poçt İdarəsinə tabe Tiflis, Kutais və İrəvan quberniyalarının, Yelizavetpol quberniyasının Qazax qəzasının və Suxum şöbəsinin poçt müəssisələri (Batum və Qars vilayətlərinin müəssisələri üçün 3 noyabr 1878-ci il tarixli müvəqqəti ştat qüvvədə saxlanıldı), Bakı Poçt İdarəsinə tabe olan Bakı və Yelizavetpol quberniyalarının daxili qəzaları (Qazax qəzası istisna olmaqla), Dağıstan vilayətinin, Zaqatala dairəsinin və Xəzərarxı (Transxəzər) şöbəsinin idarələri, eləcə də Yekaterinodar Poçt İdarəsinə tabe olan Qara dəniz dairəsinin yerli poçt müəssisələri vahid prinsiplərlə yenidən quruldu [3, s. 688-689].

1880-ci il etibarilə quberniyaların daxili inzibati bölgüsünə uyğun olaraq şəbəkə bu şəkildə sistemləşdirildi: Tiflis Poçt İdarəsinin tabeliyində: Tiflis şəhərində daxili rabitə üçün 2 poçt şöbəsi (Kukiya və Avlabar); qəza poçt kontorları: I dərəcəli — Kutais, İrəvan və Aleksandropol; II dərəcəli — Axaltsıx və Poti; III dərəcəli — Naxçıvan; IV dərəcəli — Axalkələk, Culfa, Qori və Suxum; qəzalara tabe yerli poçt şöbələri: Borjom, Dilican, Duşeti, Zuqdidi, Kvirila, Yeni Bəyazid, Ozurqet, Ordubad, Pasanaur, Siqnax, Telavi və Çarskiye Kolodtsı, eləcə də daxili xətlərdə ştat nəzarətçisi olan 62 poçt stansiyası.

Bakı Poçt İdarəsinin tabeliyində: quberniya və qəza mərkəzlərində yerləşən poçt kontorları: I dərəcəli — Yelizavetpol (Gəncə), Temirxan-Şura, Şamaxı və Şuşa; II dərəcəli — Dərbənd; III dərəcəli — Nuxa və Petrovsk; IV dərəcəli — Quba və Lənkəran; qəzadaxili poçt şöbələri: Qunib, Dəşləqar, Zaqatala, Salyan, Çir-Yurt, Krasnovodsk və Aleksandrovski portu, habelə nəzarətçisi olan 45 yerli poçt stansiyası [3, s. 687-690].

Rusiya Dövlət Şurasının 8 yanvar 1885-ci il tarixli "Qafqazda poçt hissəsinin idarə olunmasının yenidən təşkili haqqında" qərarı ilə bütövlükdə Cənubi Qafqazın quberniya və vilayətlərində idarəetmə vahid regional prinsiplə yenidən quruldu [1, s. 22]. İslahatın mahiyyətinə əsasən, hər bir quberniyada xırda və pərakəndə idarəçilik saxlamaq əvəzinə, regionun poçt təsərrüfatı strateji və coğrafi əhəmiyyətinə görə üç əsas mərkəz — Bakı, Tiflis və Kutais quberniya poçt kontorları arasında bölüşdürüldü [1, s. 22]. Bu çərçivədə Tiflis Quberniya Poçt Kontorunun idarəçiliyinə Tiflis quberniyası ilə yanaşı, İrəvan quberniyası və Qars vilayətinin poçt müəssisələri verildi (Quseynov, s. 22). Qərbi Cənubi Qafqazda isə Kutais Quberniya Poçt Kontoru mərkəz təyin olunaraq Kutais quberniyası, eləcə də Batum və Suxum dairələrinin rabitə şəbəkəsini öz tabeliyinə aldı [1, s. 22-23].

Bu qərar əsasında Bakı Poçt İdarəsi Bakı Quberniya Poçt Kontoru adlandırıldı, kontorun rəisi isə poçt hissəsinin idarəedicisi adlanmağa başladı. Kontora Bakı və Yelizavetpol quberniyalarının, habelə Zakaspi və Dağıstan vilayətlərinin poçt müəssisələri tabe edildi [1, s. 22-23; 3, s. 689].

Daha sonra 1885-ci ilin mayında Dövlət Şurasının "Yerli poçt və teleqraf müəssisələrinin yenidən təşkili haqqında" yeni qanunu qəbul edildi [1, s. 23]. Bu qərara uyğun olaraq poçt və teleqraf sahələri vahid strukturda birləşdirildi, Daxili İşlər Nazirliyinin Baş Poçt və Teleqraf İdarəsinə tabe olan poçt-teleqraf dairələri təşkil edildi, şəhərlərdə və digər yaşayış məntəqələrində isə birləşmiş poçt-teleqraf kontorları yaradıldı [1, s. 23].

Nəticədə Şimali Qafqaz, Cənubi Qafqaz diyarı və Zakaspi vilayətinin bütün quberniya və qəza poçt idarələri birbaşa Poçt və Teleqraf Baş İdarəsinə tabe olan üç mərkəzləşdirilmiş regional dairə — Vladiqafqaz, Tiflis və Bakı poçt-teleqraf dairələri arasında bölüşdürüldü [3, s. 690].

Rəsmi məlumatlara görə, 1895-ci ildə Qafqaz üzrə 264 poçt müəssisəsi mövcud idi. Bunlardan ən böyük say — 49 müəssisə Kuban vilayətində, ən kiçik say isə — 8 müəssisə Qara dəniz quberniyasında idi [7, s. 22].

XIX əsrin 80-ci illərində Cənubi Qafqazda poçt-rabitə və sərnişin daşımaları xüsusi imtiyaza malik podratçı qurumlar — o cümlədən "Qafqazda poçt ekipajlarının hərəkəti Cəmiyyəti" [4, s. 109].

XIX əsrin 80-ci illərində Rusiya imperiyasının ümumi poçt-rabitə nizamnaməsi və taarif sistemi Cənubi Qafqaz quberniyalarında — o cümlədən Bakı, Yelisavetpol, Tiflis və İrəvanda da bilavasitə tətbiq edilirdi [4, s. 129–131].

Rəsmi sənədlərə istinadən demək olar ki, bu dövrdə Cənubi Qafqazda dövriyyədə olan daxili və bey-

nəlxalq korrespondensiya (poçt göndərişləri) üçün dəqiq çəki və məsafə taarifləri (taksaları) müəyyən edilmişdi.

Bu qaydalara görə, açıq məktublar üçün 3 qəpik, əyalət şəhərlərində yerli qapalı məktublar üçün 3 qəpik (paytaxt mərkəzlərində 5 qəpik), şəhərlərarası qapalı məktublar üçün isə hər lota görə ən azı 7 qəpik rüsum tutulurdu. Beynəlxalq məktublarda hər 15 qram üçün 7 qəpik tələb olunur, ödənişi tam edilməmiş və ya frankirə olunmamış göndərişlərdən isə ikiqat cərimə haqqı alınırdı.

Sifarişli korrespondensiyalar, habelə pul və qiymətli paketlər üçün əsas çəki rüsumundan əlavə olaraq hər göndərişə görə 7 qəpik sabit sifariş haqqı tətbiq edilirdi. Mətbuat orqanları, qəzet-jurnallar, işgüzar sənədlər və ticarət mal nümunələrinin banderolla daşınmasında isə şəhərdaxili və şəhərlərarası göndərişlər üçün hər 4 lota 2 qəpiklik minimal tarif qüvvədə idi [4, s. 129-130].

XIX əsrin sonlarında Cənubi Qafqazın əsas inzibati və rabitə mərkəzi olan Tiflis Poçt İdarəsində korrespondensiyanın qəbulu, göndərilməsi və paylanması ciddi şəkildə nizamlanmış qrafik əsasında həyata keçirilirdi [4, s. 134–135].

XIX əsrin ortalarından etibarən Cənubi Qafqazda həyata keçirilən inzibati və iqtisadi islahatlar regionda poçt rabitəsinin struktur baxımından təkmilləşdirilməsini və Avropa standartlarına uyğunlaşdırılmasını zəruri etmişdi. Mərkəzi şəhərlərdə artan ticarət dövriyyəsi və əhali sıxlığı daxili korrespondensiyanın çatdırılmasında yeni, daha çevik mexanizmlərin, o cümlədən poçt ödəniş nişanlarının tətbiqini tələb edirdi. Bu zərurətin nəticəsi olaraq, 1857-ci ildə ümumrusiya poçt markalarının tədavülə buraxılmasından bir qədər əvvəl Qafqazın inzibati mərkəzində şəhərdaxili xidmətin asanlaşdırılması məqsədilə xüsusi yerli markanın buraxılması qərara alındı. Filateliya tarixində "Tiflis unikumu" kimi tanınan bu nadir nümunə bütövlükdə Cənubi Qafqaz regionunda poçt ödəniş sisteminin modernləşməsinin ilk və ən mühüm addımlarından biri oldu.

İlk növbədə qeyd edək ki, 1858-ci ilə qədər Rusiya imperiyasında, eləcə də Cənubi Qafqazda məktubların göndərilməsi "markalardan əvvəlki dövr" (domaroçnıy period) qaydaları ilə tənzimlənirdi. Bu dövrdə poçt markaları mövcud olmadığından poçt haqları nağd pulla ödənilir, göndərişlərin üzərinə isə yalnız məntəqənin adını, bəzən isə qəbul tarixini göstərən sadə xətti və ya düzbucaqlı "şəhər ştempelləri" vurulurdu. "Rusiyanın ilk poçt markaları meydana çıxdıqdan qısa müddət sonra ləğvetmə ştempellərinin tətbiqinə başlanıldı. Baş Poçt İdarəsinin 31 may və 7 avqust 1858-ci il tarixli sirkulyarları ilə markalardan əvvəlki dövrün ştempelləri əvəzinə şəhər adı və göndərilmə tarixi göstərilməyən nöqtəli nömrə ştempelləri tətbiq edildi" [6, s. 43].

1857-ci ilin yayında Tiflisdə buraxılmış poçt markası nəinki Cənubi Qafqaz regionunda, bütövlükdə Rusiya İmperiyası miqyasında tədavülə daxil olan ilk yapışqanlı poçt markası kimi tarixə düşmüşdür. Hətta ümumrusiya poçt markalarının rəsmi tətbiqindən (1 yanvar 1858-ci il) əvvəl həyata keçirilən bu təşəbbüs Qafqazda poçt işinin modernləşməsində bir ilkin əsasını qoymuşdur. Nəticədə filateliya elmində "Tiflis unikumu" adı ilə məşhurlaşan bu ödəniş nişanı həm ümumrusiya, həm də Cənubi Qafqaz rabitə tarixinin unikal hadisələrindən biri hesab olunur.

Rusiyanın ümumidövlət poçt markalarının eskizləri əsasında hazırlanan yerli markalar 1858-ci ilin mart ayından etibarən 1919-cu ilin oktyabrınadək Cənubi Qafqazda poçt müəssisələrində fasiləsiz şəkildə tədavüldə olmuşdur.

Qeyd edək ki, 1858–1918-ci illər aralığında Bakı, Yelizavetpol (Gəncə), İrəvan quberniyalarında xüsusi yerli və ya muxtar poçt markaları buraxılmamış, bölgənin bütün poçt-rabitə dövriyyəsi Rusiya imperiyasının ümumdövlət standart markaları vasitəsilə təmin edilmişdir. 1858-ci ilin əvvəllərindən etibarən hər iki mərkəzin poçt kontorlarına sadə və sığortalı şəhərlərarası göndərişlər üçün nəzərdə tutulmuş 10, 20 və 30 qəpiklik ilk imperiya markaları daxil olmuş, 1864–1889-cu illərdə isə yerli və qəzadaxili yazışmaların həcminin artması ilə əlaqədar 1, 2, 3 və 5 qəpiklik kiçik nominallı gerbli markaların tətbiqi genişlənmişdir. XIX əsrin sonu və XX əsrin əvvəllərində (xüsusilə 1884 və 1909–1910-cu illər standart buraxılışları dövründə) poçt buynuzları və ildırım simvolları ilə bəzədilmiş yeni tərtibatlı markalar, eləcə də iri bağlamalar üçün yüksək qiymətli (1, 3.50, 5 və 7 rublluq) ödəniş nişanları tədavülə daxil edilmişdir. 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaranması ilə Gəncə və Bakıda poçt sistemi milliləşdirilmiş, 1919-cu il oktyabrın 20-də ilk milli markaların dövriyyəyə buraxılması ilə imperiya markalarının istifadəsinə rəsmən son qoyulmuşdur.

1864-cü ildən etibarən Cənubi Qafqazda ümumrusiya poçt markalarının tətbiqi və dövriyyəsi qısa müddətdə geniş vüsət almış, əhalinin poçt xidmətlərinə və markalara olan tələbatı kəskin şəkildə artmışdır [5, s. 42].

Ümumiyyətlə, XIX əsrin 60-cı illərindən etibarən Cənubi Qafqazda poçt işi hərbi-inzibati çərçivədən çıxaraq əsasən əhalinin və təsərrüfat subyektlərinin istifadəsinə yönəlmiş mülki rabitə xidmətinə çevril-

mişdir. Həyata keçirilən struktur islahatları nəticəsində poçt və teleqraf sahələri birləşdirilmiş, idarəetmədə mərkəzləşmə təmin olunmuş və xidmətlərin çeşidi artırılmışdır. Nəqliyyat şəbəkəsinin genişlənməsi ilə paralel olaraq poçt daşımalarının marşrutları və coğrafi əhatəsi böyümüş, şəhər və qəzalarda yeni şöbələrin açılması ilə korrespondensiyanın qəbulu və çatdırılması intensivləşmişdir. Nəticədə qurulan bu idarəetmə və xidmət infrastrukturu sonrakı dövrdə regionun müstəqil rabitə şəbəkəsinin təşkilinə zəmin yaratmışdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Гусейнов Т. К. Развитие связи в Азербайджане. – Баку: Азербайджанское государственное издательство, 1965. – 156 с.
2. Закиян Х. А., Салтыков С. А. Почта и почтовые марки Армении / под ред. В. М. Григоряна. – Ереван: Айастан, 1988. – 226 с.
3. Историческій очеркъ развитія почты на Кавказѣ // Почтово-телеграфный журналъ (Отдѣлъ неоффиціальный). – С.-Петербургъ: Типографія Министерства Внутреннихъ Дѣлъ, 1902. – Сентябрь (Годъ 15-й). – С. 665–689.
4. Кавказский календарь на 1883 год. – Тифлис: Типография Канцелярии Главноначальствующего гражданской частью на Кавказе, 1882. – Отд. 2-е: Почта. – С. 129–135.
5. Каминский Б. А. Тифлисская городская почта // Филателия СССР. – 1971. – № 10. – С. 41–44.
6. Лобачевский В. В. Общегосударственные почтовые марки России выпусков 1857–1879 годов // Советский коллекционер. – 1976. – № 14. – С. 41–77.
7. Министерство внутренних дел. 1802–1902: Исторический очерк. Приложение второе: Почта и телеграф в XIX столетии. – СПб.: Типография Министерства внутренних дел, 1901. – 248, VII с.
8. О назначении Каханова управляющим почтовою частью на Кавказе и за Кавказом // Российский государственный исторический архив (РГИА). Ф. 1268 (Кавказский комитет). Оп. 9. Д. 276. Л. 1–2, 7.
9. О передаче в виде опыта сроком на три года почтовых станций Тифлисской губернии из ведения уездной полиции в непосредственное управление Почтового ведомства // Российский государственный исторический архив (РГИА). Ф. 1289 (Главное управление почт и телеграфов МВД). Оп. 1. Д. 1309. Л. 2–5, 11–12.
10. Об устройстве почтовых экипажей на Кавказе // Газета «Кавказ». – Тифлис, 1863. – № 66. – С. 1–2.
11. Перекрестова С. В. Реорганизация почтово-телеграфного управления в России в середине 1860-х – начале 1880-х гг.: несостоявшееся формирование объединённой службы связи // Вестник Омского университета. Серия «Исторические науки». – 2019. – № 4 (24). – С. 59–68.
12. Полное собрание законов Российской империи. Собрание второе. – Т. XLII. Отделение 2 (1867 г.). – СПб.: Типография II Отделения Собственной Е.И.В. Канцелярии, 1871. – № 45259.
13. Gitin V. Tiflis stamp. – Moscow: Ridero, 2021. – 214 p.

HISTORY OF THE EVOLUTION OF POSTAL SERVICES IN THE SOUTH CAUCASUS IN THE SECOND HALF OF THE 19TH CENTURY

Elmira Firdovsi Aliyeva
Ganja State University, PhD Student

SUMMARY

The main objective of this study is to examine the evolution of postal services, structural reforms, tariff policies, and the modernization of communications infrastructure in the South Caucasus during the second half of the 19th century. Based on archival documents and periodical sources, the study analyzes the impact of central administrative transformations within the Russian Empire on the South Caucasus, the transfer of postal stations from local police jurisdiction to the Postal Department, and the establishment of horse-drawn mail coach services along the Georgian Military Road. Furthermore, it highlights the establishment of the Caucasus Postal District (1863), the organization of post offices (*pochamt*) in Baku and Tiflis, and the transition to a regional district system following the unification of postal and telegraph departments in 1885.

Special attention is paid to the economic and technological dimensions of postal communication: the circulation of the famous "Tiflis Unique" in 1857 prior to the introduction of nationwide Russian stamps, the adoption of imperial coat-of-arms postage stamps from 1858 onward, and the implementation of precise weight (*lot*) and distance-based tariffs.

The study comparatively presents how the rise of the oil industry in Baku stimulated high-denomination international postal circulation, whereas in Yelizavetpol (Ganja) and adjacent uyezds, agrarian trade primarily drove civilian correspondence. The centralized administrative and operational infrastructure established during this era laid the foundation for the subsequent development of independent national communications networks in the region.

Keywords: *South Caucasus, postal service, Caucasus Postal District, postal tariffs, Tiflis and Baku post offices, infrastructure modernization.*

ИСТОРИЯ ЭВОЛЮЦИИ ПОЧТОВОЙ СЛУЖБЫ НА ЮЖНОМ КАВКАЗЕ ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА

Эльмира Фирдовси Алиева
Гянджинский Государственный Университет, докторант

РЕЗЮМЕ

Основной целью данного исследования является анализ эволюции почтовой службы, проводимых в данной сфере структурных реформ, тарифной политики и процессов модернизации инфраструктуры связи на Южном Кавказе во второй половине XIX века. В работе на основе архивных документов и периодических источников исследуются влияние преобразований в центральном аппарате управления связью Российской империи на Южный Кавказ, передача почтовых станций из ведения уездной полиции в непосредственное управление Почтового ведомства и организация регулярного движения почтовых экипажей по Военно-Грузинской дороге. Освещаются учреждение Кавказского почтового округа (1863 г.), создание Бакинского и Тифлисского почтамтов, а также переход к окружной системе после объединения почтовой и телеграфной отраслей в 1885 году.

Особое внимание уделяется экономическим и технологическим аспектам почтового сообщения: вводу в обращение знаменитой «Тифлисской уника» (1857 г.) еще до появления общегосударственных знаков почтовой оплаты, применению общегосударственных гербовых почтовых марок с 1858 года, а также внедрению четких весовых (в лотах) и дистанционных тарифов. На основе сравнительного анализа показано, как развитие нефтяной промышленности в Баку стимулировало рост международного почтового обмена и спрос на марки высоких номиналов, в то время как в Елизаветполе (Гяндже) и прилегающих уездах аграрная торговля способствовала активизации частной корреспонденции. Сформированная в этот период централизованная инфраструктура послужила фундаментом для последующего создания независимых национальных сетей связи в регионе.

Ключевые слова: *Южный Кавказ, почтовая служба, Кавказский почтовый округ, почтовые тарифы, Тифлисский и Бакинский почтамты, модернизация инфраструктуры.*

Rəyçi:Tarix üzrə fəlsəfə doktoru, dosent
Mübariz Ağalarlı

Məqalə redaksiyaya daxil olub: 21.07.2026
Çapa qəbul olunub: 29.08.2026
The date of the admission of the article to the editorial office: 21.07.2026
Accepted for publication: 29.08.2026